*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu, ISSN 2224-9257*
*Filologiya məsələləri № 6, 2024*
*Səh. 328-333*
https://doi.org/10.62837/2024.6.328

**JASMİN VƏLİXANOVA ARIF QIZI**
Xarici ölkələr ədəbiyyatı kafedrası
e-mail: jasminvelixanova@gmail.com
Azərbaycan Dillər Universiteti
(Bakı şəh., R.Behbudov küç., 60)

# CON RONALD RUEL TOLKIN YARADICILIĞINDA MİF VƏ REALLIQ

**Açar sözlər:** C.R.R.Tolkin, mif, "Üzüklərin hökmdarı", Britaniya ədəbiyyatı, Orta Dünya

**Key words:** J.R.R. Tolkien, myth, *Lord of the Rings*, British literature Middle Earth

**Ключевые слова:** Дж.Р.Р.Толкин, миф, «Властелин колец», Британская литература, Средиземье

XX əsrin ən məşhur yazıçılarından biri, iki yüzdən çox müxtəlif səpgili əsərin müəllifi olan ingilis yazıçısı Con Ronald Ruel Tolkin (1892-) , 3 yanvar 1892-ci ildə Cənubi Afrikanın Blumfonteyn şəhərində anadan olmuş, lakin həyatının çox hissəsini İngiltərədə keçirmişdir. Klassik fantaziya əsərlərinin müəllifi kimi tanınan Con Tolkin daha çox "Hobbit və ya Orada və Geriyə" (*The Hobbit or There and Back Again*), "Üzüklərin hökmdarı" (*The Lord of the Rings*) və "Silmarillion" (*The Silmarillion*) əsərlərilə məşhurdur. Con Tolkinin dünya ədəbiyyatına verdiyi töhfələri daha çox ingilis ədəbiyyatına aiddir, çünki onun əsərlərinin dili ingiliscədir. O, gənc yaşlarından Britaniyanın adət və ənənələrilə həmahəng yaşadığından onun folkloru, mifologiyası və dil ənənələrindən çox təsirlənərək nəsillər boyu oxucuları ovsunlamağı bacaran əsərlər yazmışdır. Bu səbəbdən də Con Tolkin müasir fantaziya ədəbiyyatının yaradıcısı kimi qəbul edilmişdir [6].

Qeyd edək ki, hələ də Con Tolkinin yaradıcılığına bir tərəfli və tendensiyalı yanaşma qalmaqdadır. Onun ədəbi irsini araşdıran tədqiqatçılar yaradıcılığının müxtəlif yönlərinə müraciət edir, metafora, mif, mifoloji motiv və əsərlərinin poetikası probleminə təkrar-təkrar toxunurlar. İstər ingilis, istərsə də keçmiş post-sovet ədəbiyyatşünaslığında onun yaradıcılığı bu baxımdan müxtəlif istiqamətlərdə tədqiq olunmuşdur. Bu gün Qərb mədəni məkanında "Tolkinşünaslıq" ayrı və kifayət qədər spesifik bilik sahəsi kimi artıq tam formalaşmışdır. Eyni zamanda, həcmcə iri formalı əsərlərin çoxluğu da xüsusilə diqqəti cəlb edir (R.Rouzberi, T.Şippi, O`Nil, M.Huker, D.Hyuz, K.Kilbi, P.Karri, J. Pirs və digərləri) [4]. Keşmiş post sovet məkanında Con Tolkinin yaradıcılığı hələ də diqqət mərkəzindədir. Bu sıradan Y.V.Tixomirovanın "J. R. R. Tolkinin ədəbi tənəzzülündə mifik axtarış" əsərində mif (və ya Proppun dediyinə görə, "Qəhrəmanın macəra axtarışı"), İ.A.Maklakovun "J.R.R. Tolkinin "Üzüklərin hökmdarı" epopeyası Qərbi Avropa ədəbi ənənələri kontekstində", S.B. Lixaçeva "Con Ronald Ruel Tolkienin əsərlərində alliterativ poeziya", O.S.Potapovanın "J.R.R.Tolkinin mif yaratması: "Silmarillion" müasir

mif nəzəriyyəsi kontekstində" araşdırılmışdır. Bu əsərlərin mövzu və tədqiqat obyekti oxşardır [6].

Con Tolkinin yaradıcılığının ümumi həcminə və çoxcəhətliliyinə baxmayaraq, tədqiqatçıların diqqətini əsasən yalnız onun mif, mifin həyata keçirilməsi və bəzən də xristianlıqla əlaqəsi məsələsi daha çox diqqəti cəlb edir.

Daha çox ədəbi-bədii komponent - janr əsasları, ilk poetik eskizlərdən, bayağı nəsr fraqmentləri daxil olmaqla müəllif ideyasının inkişafı və əfsanələr baxımından çərçivəyə salınmış, müəyyən roman quruluşuna qədər yazıçının əsərlərində istifadə olunmuşdur. Bu cəhətlər Con Tolkinin yaradıcılığının həqiqətən də vacib tərkib hissəsidir, amma buna baxmayaraq ona tamam başqa bucaqdan yanaşmaq da maraqlıdır. Azərbaycan ədəbiyyatşünaslığında "Tolkinşünaslıq" hələ formalaşmamışdır. Con Tolkinin kitablarına maraq böyük olsa da, geniş araşdırma obyektinə çevrilməmişdir. Belə ki, mövzu ilə bağlı monoqrafik planda ciddi araşdırma da yoxdur.

Con Tolkinin ən məşhur əsərləri olan "Hobbit" və "Üzüklərin hökmdarı" trilogiyası nəinki müxtəlif ədəbi məktəblərin nöqteyi-nəzərindən təhlil edilir, həmçinin digər elm sahələrinə aid nəzəriyyələrdən də tez-tez istifadə olunur. 1937-ci ildə nəşr olunan "Hobbit" bir qrup cırtdan və Qandalf adlı sehrbazla macəra dolu anlar yaşayan və özü də hobbit olan Bilbo Bagginsin səyahətindən bəhs edir. Bu roman Con Tolkinin əfsanəsinin əsasını qoyaraq, oxucuları Orta Dünya və onun sakinləri ilə tanış edir. Con Tolkinin yazdığı bütün əsərlərdə sehrli elementlər yer alır. Onun əsərlərində çox vaxt qəhrəmanlıq, dostluq, xeyirlə şərin mübarizəsi, çətinliklər qarşısında mərdlik və mətanətin ifadəsi kimi motivlər üstünlük təşkil edir [3].

Dünya ədəbiyyatında bir çox müəllifin əsəri "Üzüklərin hökmdarı"nın mövzu, motiv və məzmunu baxımından müəyyən bənzərlik təşkil etsə də, geniş epik lövhələr baxımından fərqlənir. Con Tolkin öz əsəri haqqında yazır: "Bu uzun kitabım mənim şəxsi estetikama əsaslanan dil dünyasını yaratmaq cəhdidir" [2, s. 28]. Yazıçı hobbitlərin səyahətinə dərin mənalar yükləyərək trilogiyasını "ölüm və ölümsüzlük ehtirası haqqında" həqiqi "katolik kitab" adlandırır. Lakin böyük bir sehrli aləmi özündə ehtiva edən əsər həqiqətən də maraqlı və dəyərli posmodernist ədəbiyyat nümunəsidir.

"Üzük qardaşlığı", "İki qüllə" və "Kralın qayıdışı" süjetlərindən ibarət olan "Üzüklərin hökmdarı" trilogiyası Con Tolkinin yaradıcıllığının əsas əsərlərindən biri hesab olunur. Onun 1954-1955-ci illər arasında nəşr olunan bu epik əsəri, Orta Dünyanı qaranlığa qərq etmək gücünə malik olan Tək Üzüyü tapmaq və məhv etmək sujeti üzərində qurulmuşdur. Con Tolkinin sənətkarlıqla yaratdığı mürəkkəb süjet xətti və əsərin personajları "Üzüklərin hökmdarı" əsərini fantastik janrda ədəbiyyatın ən sevimli və təsirli nümunələrindən biri kimi oxucuların yaddaşına həkk etmişdir.

Con Tolkinin miflərə olan marağı və məftunluğu, uşaqlıq təcrübələrindən və elmi axtarışlarından qaynaqlanırdı. İngilis kəndində böyüyən yazıçı folklor və

Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu, ISSN 2224-9257
Filologiya məsələləri № 6, 2024
Səh. 328-333
nağılların zəngin kultu ilə uşaq yaşlarından tanış olmuş, bu da onun təxəyyülünü erkən yaşlarından formalaşdırmışdı. O, filologiya və ədəbiyyat sahəsindəki araşdırmaları sayəsində müxtəlif mədəniyyətləri, o cümlədən Norveç, Fin və Uels mifologiyalarını dərindən öyrənmişdi.

Tarixşünaslıq və ya tarixi baxımdan yanaşma (P.Çistyakov, Erandil və s.) Con Tolkinin kitablarını əsrlər boyu möcüzəvi şəkildə qorunub saxlanılan və uzaq keçmişdəki hadisələri təsvir edən bir növ tarixi sənədlər kimi şərh edir. Eyni zamanda, Arda hadisələrinin təhlilinə bəşəriyyətin real tarixi üçün işlənmiş müxtəlif tarixi nəzəriyyələr və konsepsiyalar cəlb edilir. Əsərdə Arda tarixinin ayrı-ayrı qaranlıq dövrləri yenidən qurulur [4].

Con Tolkinin akademik təcrübəsi onun mif yaratma cəhdlərinin formalaşmasında mühüm rol oynamışdır. O, Oksford Universitetində Anglo-Saxon dövrü üzrə professor kimi çalışaraq qədim dillərin və mətnlərin tədqiqi ilə məşğul olmuş, mifoloji povestlərin strukturu və mövzuları haqqında anlayışlar əldə etmişdi. Əsasən də qədim ingilis və norveç ədəbiyyatı haqqında olan bilikləri ona öz miflərini yaratmaq üçün möhkəm zəmin yaratmışdı.

Con Tolkin vahid Britaniya mifologiyasının olmamasından təəssüf hissi keçirirdi. O, gördüyü mədəni boşluğu doldurmaq üçün əvvəlcə kiçik miflər yaratmağa çalışır. Bununla da o, tədricən şəxsi təcrübələrini və akademik maraqlarını birləşdirərək vahid mifoloji dünya yaratmaq qərarına gəlmişdi. Elmi biliyindən və yaradıcı yönündən ilham alan Con Tolkin Orta Dünya kimi tanınan mürəkkəb uydurma dünya qurmaq missiyasına başladı.

Con Tolkinin mifləri onun öz inanclarını, təcrübələrini və ətrafındakı dünya ilə bağlı müşahidələrini əks etdirən saysız-hesabsız mövzu və motivləri əks etdirir. Onun hekayələrində qəhrəmanlıq, dostluq, fədakarlıq və xeyirlə şər arasında əbədi mübarizə mövzuları əsas yer tutur. Öz personajları və onların missiyaları vasitəsilə Con Tolkin mürəkkəb əxlaqi dilemmalar və çətinliklər qarşısında ümidin qalıcı gücü kimi mənəvi dəyərləri oxuyucuya aşılamağa çalışır. Con Tolkinin mifləri sənayeləşmə, müharibə və ənənəvi dəyərlərin aşınması da daxil olmaqla, müasir cəmiyyət problemlərini də özündə əks etdirir. Belə ki, onun yaratdığı mifik personajlar onun dünyagörüşünün əksi idi.

Con Tolkinin miflərdən istifadə etməsinin bir neçə səbəbi var idi. ***Birincisi***, miflər onun hekayələrindəki fantastik elementləri realizm baxımından əsaslandıraraq zəngin mifik personajları tarixi obrazlar kimi təqdim edə bilirdi. Yaradılan miflər canlıların, irqlərin və hətta dünyanın özünün mənşəyi ilə bağlı izahat verir, hekayədə baş verən hadisələrə dərinlik və məzmun qatırdı. ***İkincisi***, miflər əxlaqi və fəlsəfi dərslərin çatdırılması vasitəsi kimi də çıxış edir. Con Tolkin Orta Dünya mifləri vasitəsilə dostluq, cəsarət, fədakarlıq və xeyirlə şər arasında əbədi mübarizə motivləri üzərində işləyirdi. Personajlar çox vaxt bu miflərdən güc və ilham alır, davranışlarının istiqamətini miflər yönündə dəyişir və talelərini formalaşdırırdılar. ***Üçüncüsü***, Con Tolkin yaradıcılığındakı miflər onun uydurma dünyasını bizim dünyamızla birləşdirməyə xidmət edir. Norveç, Kelt və Anqlo-sakson əfsanələri kimi

real dünya mifologiyası və folklor elementlərindən istifadə etməklə yazıçı tanışlıq və rezonans hissi yaradırdı. Həqiqi mədəni irs olan və reallıqda mövcud olan miflərlə Con Tolkinin trilogiyasındakı miflər arasında əlaqə onun yaradıcıllığına dərinlik və orijinallıq əlavə edirdi. Çünki miflər onun hekayələrinin bütün strukturunu dəstəkləyən əsas sütunlardır. Onlar kontekst təmin edir, məna çatdırır, real dünya ilə mif dünyasını əlaqələndirirlər [5].

Con Tolkin təkcə mahir hekayə ustası deyil, həm də miflər və dillərlə dərindən maraqlanan bir alim idi. O, həyatı boyu dostları, həmkarları və pərəstişkarları ilə yazışaraq əsərləri və akademik maraqları ilə bağlı müxtəlif mövzuları müzakirə edirdi. Onun məktublarından bəzi sətirlərə nəzər salaq: “Məktub 131: Milton Valdmana”: *“Mən ilk günlərdən öz sevimli ölkəmin mənəvi yoxsulluğuna görə kədərlənirdim: onun öz vahid hekayəsi yox idi (dili və torpağı ilə bağlı), başqa ölkələrin əfsanələrində axtardığım və tapdığım keyfiyyət öz ölkəmin ədəbiyyatında yox idi”.*[1, s.167]

Göründüyü kimi burada Con Tolkin İngiltərədə onun Orta Yer üçün öz mifologiyasını yaratmasına səbəb olan zəngin mifoloji ənənənin olmaması haqqında düşünür. Con Tolkinə görə öz ölkəsinin vahid mifologiyasının olmaması onun ölkəsinin mənəvi cəhətdən yoxsul olması deməkdir. O hesab edirdi ki, xalqın mifləri onun şəxsiyyətinin və mədəni zənginliyinin ayrılmaz hissəsidir. Yuxarıda qeyd etdiyimiz kimi onun mifologiya yaratmaq cəhdi vahid Britaniya mifologiyasının mövcud olmaması ilə əlaqəli idi.

Eyni məktubda müəllifin başqa qeydinə nəzər salaq: “*Nəhayət mən bütün mifiloji kompleksin elf dilçiliyində öz əksini tapmasını görə bildim*” [1, s.172].

Burada Tolkin miflərin dillə necə dərindən qarışdığını vurğulayaraq, dil kontekstinin onların tam mənasını və əhəmiyyətini anlamaq üçün vacib olduğu fikrini irəli sürür.

“Məktub 153” də oxuyuruq: “*Qorxuram ki, mən özüm də mifologiyaya çox təsadüfi aludə olmuşam: əfsanələr, miflər və nağıllar mənim üçün həmişə bir-birindən ayrılması mümkün olmayan anlayışlar idilər*” [1, s.207].

Bu hissədən aydın olur ki, Con Tolkin mifologiya ilə dərin şəxsi əlaqəsini ortaya qoyur, əfsanələrə, miflərə və nağıllara fərqli kateqoriyalar deyil, bir-biri ilə əlaqəli elementlər kimi baxır.

Con Tolkinin ümumi məktublarında miflərə verdiyi əhəmiyyət onların bəşər tarixinin əsas komponenti olması və həyatımıza dərindən təsir etməsidir. Con Tolkin iddia edir ki, miflər insanların ekzistensial suallarına cavab verir və insan təbiətinin dərinliklərinə enir. O, həmçinin bildirir ki, miflər cəmiyyətləri bir arada saxlayır, ümumi kimlik və dəyər sistemi yaradır [4].

Con Tolkinin yaradıcılığında miflərin rolu həyati əhəmiyyət kəsb edir. Miflər Orta Dünyanın dərinliklərini və tarixini formalaşdırır. Onlar personajların və hadisələrin fonunu yaratmaqla oxucunu mövcud olmayan uydurma bir dünyanın keçmişinə səyahət etdirir. Con Tolkinin miflərlə dolu dünyası onun oxucularını valeh edərək onun bəşər tarixinə və mifologiyasına dərin hörmətini əks etdirir.

## ƏDƏBİYYAT

1. Carpenter, Humphrey. *The Letters of J.R.R. Tolkien*. Houghton Mifflin, 1981, p.167-300
2. Carpenter, Humphrey. *Tolkien: A Biography*. George Allen & Unwin, 1977, 304p.
3. Garth, John. *Tolkien and the Great War*. HarperCollin, 2003, 368 p.
4. Shippey, Tom. *J.R.R. Tolkien: Author of the Century*. HarperCollins, 2000, 576 p.
5. White, Michael. *Tolkien: A Biography Little*, Brown and Company, 2001, 400 p.
6. Маклаков И.А. Эпопея Дж.Р.Р. Толкина “Властелин Колец” в контексте западноевропейских литературных традиций. Автореферат диссертации на соискание ученой степени кандидата филологических наук. Казань - 2007, 24 с.

## Xülasə

Bu məqalədə britaniyalı yazıçı Con Ronald Ruel Tolkin (1892-1973) yaradıcılığı təhlil edilir. Con Tolkin İngiltərə ədəbiyyat tarixində mühüm yer tutur. Mifik personajların görkəmli ustası, həyatın ziddiyyətlərini dərindən dərk edərək, təkcə öz vətənində deyil, digər ingilisdilli ölkələrdə vı dünyada geniş şöhrət qazanmışdır. Tolkinin yaradıcılıq metodu eyni dərəcədə situasiyaların mifik və personajların qeyri-adiliyi ilə xarakterizə olunur. Tolkin qeyri-adi təxəyyül və yüksək bədii məharət nümayiş etdirən mifik personajların bütöv qalereyasını yaratmışdır. O, XX əsrin əvvəllərində Britaniya ədəbiyyatına böyük töhfə verən, onun sonrakı inkişafını böyük ölçüdə müəyyən edən realist ənənələrə sahib bir yazıçıdır.

**JASMINE VELIKHANOVA**

## SUMMARY

## MYTH AND REALITY IN THE WORKS OF JOHN RONALD REUEL TOLKIEN

This scientific paper analyses the works of the British writer John Ronald Reuel Tolkien (1892-1973). John Tolkien occupies a significant place in the history of English literature. The outstanding master of mythical characters, profoundly understanding the contradictions of life, has gained wide fame not only in his homeland but also in other English-speaking countries and the world. J.Tolkien’s creative method is equally characterized by the mythicity of situations and the unusualness of characters. J.Tolkien has created a whole gallery of mythical characters who display extraordinary imagination and high artistic skill. He is a writer with a realist tradition who contributed greatly to British literature at the beginning of the 20th century and largely determined its subsequent development.

**Резюме**

**Миф и реальность в творчестве Джона Рональда Руэла Толкина**

В данной статье анализируется творчество британского писателя Джона Рональда Руэла Толкина (1892-1973). Джон Толкин занимает важное место в истории английской литературы. Выдающийся мастер мифических персонажей, глубоко понимая противоречия жизни, снискал широкую известность не только на родине, но и в других англоязычных странах и мире. Творческому методу Толкина в равной степени свойственна мифичность ситуаций и необычность персонажей. Джон Толкин создал целую галерею мифических персонажей, проявляющих незаурядное воображение и высокое художественное мастерство. Это писатель реалистической традиции, внесший большой вклад в британскую литературу начала XX века и во многом определивший ее последующее развитие.

**Redaksiyaya daxil olma tarixi: 03.06.2024**
**Çapa qəbul olunma tarixi: 28.06.2024**
**Rəyçi: dos., Nuranə Nuriyeva**
**tərəfindən çapa tövsiyə olunmuşdur**